UOT 327

ELGÜN TAĞIZADƏ
Bakı Dövlət Universitetinin doktorantı
Orcid: 0000-0002-0514-7808
Elgun Taghizadeh@gmail.com

BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ RİSK TRANSFORMASİYASI: BİO-SİYASƏTDƏN MATERİAL-SİYASƏTƏ KEÇİD

DOI: https://doi.org/10.36719/2708-065X/112/145-153

Məqalə müasir Qərb müharibəsində riskin yalnız horizontal (Qərb əsgərindən başqalarına) deyil, həm də vertikal şəkildə - bioloji daşıyıcıdan material daşıyıcıya ötürüldüyünü əsaslandırır. Martin Şounun "Risk-Transfer Militarizm" nəzəriyyəsi genişləndirilərək, riskin demoqrafik-emosional formadan iqtisadi-texnokratik formaya transformasiyası təhlil edilir. Tədqiqatda PUA və kibersistemlərin itkiləri "maliyyə xərci" kimi kodlaşdıraraq siyasi təzyiqi azaltması mexanizmi öyrənilir. Müəllif mövcud yanaşmaya "bioloji/material substrat" ölçüsünü əlavə edərək yeni 3D analitik model təklif edir və material itkilərin siyasi baxımdan "ucuz" olmasının struktur səbəblərini sistemləşdirir. Nəticədə, "post-heroik" müharibənin etik legitimlik və iqtisadi dayanıqlılıq dilemması dəyərləndirilir.

Açar sözlər: Risk transferi, Martin Şou, biosiyasət, material-siyasət, bioloji-material transfer, post-heroik müharibə, dron müharibələri, vertikal transfer.

Giriş. Riskin tarixi evolusiyası. Müharibələr tarixən "bioloji toqquşma" kimi yaşanıb və riskin mərkəzində insan bədəni *(yaralanma, ölüm, əsir düşmə və s.)* dayanırdı. Modern texnologiya bu fiziki riskin təbiətini tamamilə dəyişdirməsə də, onun idarəedilmə təbiətini yenidən qurur. Tarixən insan üzərindəki ilkin risklər ən sadə analoq nümunələrlə-nizə və oxlardan başlayaraq-atəşli silahlara ötürülmüşdür. Hər bir texnoloji yenilik döyüş meydanında insan bədəninin məruz qaldığı təhlükəni azaltmağa fokuslanmışdır. Bu risk transferi prosesi sənaye dövründə daha sistemli xarakter almağa başladı:

- Artilleriya və uzaqmənzilli silahlar əsgərlərin birbaşa fiziki təmasdan uzaq durmasına və tərəflərin məsafələnməsinə imkan verdi,
- Tanklar və zirehli texnika döyüş zamanı bədənin qorunmasını-bioloji təhlükəsizliyi-əhəmiyyətli dərəcədə artırdı,
- Aviasiya texnologiyası risk ötürülməsini yeni mərhələyə apardı: pilotlar yerüstü döyüşlərin xaosundan ayrılaraq havanın nisbi təhlükəsizliyinə yüksəldi. Hər bir addımda məqsəd eyni idi: insan bədənini birbaşa təhlükədən maksimum dərəcədə uzaqlaşdırmaq və riski material vasitələrə ötürmək.

Müasir transformasiya: Radikal Mərhələ: Müasir dövrdə bu proses radikal mərhələyə daxil olur və risk daha dəqiq desək texnoloji vasitələrə ötürülür:

- Pilotsuz uçuş aparatları *(PUA)* operatoru döyüş zonasından tamamilə çıxararaq onu binalar və okeanlararası məsafələrlə təcrid edə bilir,
- Robotlaşdırılmış sistemlər və avtonomlaşma insan bədəninin fiziki iştirakını minimuma endirir, bəzən isə tamamilə aradan qaldırır,
- Kibermüharibə konsepsiyası ilə risk ümumiyyətlə fiziki fəzadan informasiya məkanına köçür və operator ekran arxasında oturaraq kritik infrastrukturu sıradan çıxara bilir. Bu yeni reallıqda risk artıq insan bədənindən texnologiyaya, texnologiyadan isə rəqəmsal sistemlərə və şəbəkələrə ötürülür. Beləliklə, müharibənin mahiyyəti bioloji toqquşmadan texnoloji dominantlığa doğru fundamental şəkildə dəyişir və insan faktoru getdikcə daha çox qərar qəbuletmə və nəzarət funksiyasına reduksiya olunur.

Əsas arqument: "Bioloji-Material Risk Transferi" (Tezisimizin mərkəzi ideyası): Müasir Qərb müharibə tərzində risk yalnız horizontal (kimdən kimə: Qərb əsgəri → düşmən/yerli müttəfiq / mülki əhali) deyil, həm də vertikal (necə daşınır: bioloji substrat → material substrat) ötürülür. Martin Şounun analitik qiymətləndirməsi "Risk Qərb əsgərlərindən başqalarına transfer edilir" üzərində qurulur, fəqət biz riskin insan bədənindən *(bioloji vasitə)* texniki-maddi infrastruktura *(material vasitə)* transfer

edildiyini vurğulayırıq. Bu transformasiya nəticəsində risk demoqrafik, görünən və emosional olmaqdan çıxaraq; iqtisadi, abstrakt və texnokratik xarakter alır.

Martin Şounun analitik əhatə dairəsi: **"**Risk Qərb əsgərlərindən başqalarına transfer edilir" üzərində qurulur, fəqət biz qeyd etdiyimiz kimi riskin insan bədənindən *(bioloji vasitə)* texniki-maddi infrastruktura *(material vasitə)* transfer edildiyini vurğulayırıq. Bu iki proses paralel və qarşılıqlı əlaqəli şəkildə baş verir və müharibənin təbiətini köklü dəyişdirir.

Şou göstərir ki, Qərb öz əsgərlərinin riskini azaltmaq üçün başqalarını *(mülki əhali, yerli müttəfiqlər)* risk altına qoyur. Lakin bu, yalnız riskin coğrafi və sosial ötürülməsidir. Biz isə deyirik ki, risk həm də ontoloji ötürülür: Bioloji daşıyıcıdan *(insan bədəni, ət, qan, sinir sistemi), Material daşıyıcıya (dron, sensor, server, raket, kapital)*. Bu transformasiya nəticəsində: 1. Risk demoqrafik olmaqdan çıxır, iqtisadi olur, 2. Risk görünən *(cəsədlər, qanlar)* olmaqdan çıxır, abstrakt *(xərc hesabatları, büdcə sətrləri)* olur, 3. Risk emosional olmaqdan çıxır, texnokratik olur.

▌***Martin Şounun konseptual çərçivəsi:*** Martin Şou və Risk Transferi Militarizmi *(RTM)*: Baxış bucağımızın nəzəri əsaslandırmasında Martin Şounun "Risk Transferi Militarizmi *(RTM - Risk-Transfer Militarism)*" yanaşması mərkəzi yer tutur. Şou 2002-ci ildə nəşr olunan "Risk-transfer militarism, small massacres and the historic legitimacy of war" *(Risk-transfer militarizmi, kiçik qətliamlar və müharibənin tarixi legitimliyi)* məqaləsində ilkin olaraq risk transferini belə açıqlayır ki, müharibənin riski *(xüsusən əsgərlərin ölümü və daxili siyasi xərc)* "Qərb" hərbçilərindən uzaqlaşdırılıb başqa tərəflərə ötürülür və buna görə bunu "Risk-transfer militarism *(RTM)*" adlandırmağı təklif edir.

Şou "risk transferi"-ni sadəcə texnologiyanın avtomatik nəticəsi kimi deyil, siyasi seçimlərin məhsulu olan idarəetmə modeli kimi təqdim edir [7]. Onun fikrincə, mülki itkilər çox vaxt "qəza" adlandırılsa da, bu nadirən tam təsadüfidir: Qərb hərbi gücü strategiya, silahlanma/texnologiya və media idarəçiliyi səviyyələrində elə düzənlənir ki, həm öz qüvvə itkisi, həm də cəmiyyət qarşısında yaranan siyasi xərc minimuma endirilsin [14, s.7]. Bu məntiqin mərkəzində hava gücünə əsaslanan müharibə dayanır. Şou yeni Qərb müharibə tərzini 1920-ci illərdən bəri Anglo-Amerikan hərbi düşüncəsində əhəmiyyətli yer tutan aviasiya/bombardıman strategiyasının yenilənmiş forması kimi izah edir [14, s.7]. Yenilik ondadır ki, "dəqiqlik" iddiası böyük miqyaslı kütləvi qırğınları azaltmağa yönəlsə də, eyni zamanda risk müxtəlif kanallarla, xüsusən də münaqişə zonasındakı mülki əhali üzərinə ötürülür və bu özlüyündə yeni ziddiyyətlər yaradır [14, s.7-8]. Məhz buna görə Şou vurğulayır ki, riskin Qərb hərbçilərindən uzaqlaşdırılması yeni müharibə tərzinin təsadüfi nəticəsi deyil, əsas məqsədlərindən biridir. Bu məqsəd media və ictimai rəyin idarə edilməsi ilə sıx əlaqəli olduğuna görə, müəllif bu forma üçün yalnız "risk-transfer war" *(risk transferi müharibəsi)* deyil, daha geniş məna daşıyan "Risk-transfer militarism" terminini təklif edir [14, s.8]. Şou RTM-in açıqlanmasını 5 əsas element üzərində qurur və Şounun yanaşmasını tədqiqat baxımından güclü edən cəhət ondadır ki, o, RTM-ni praktik təhlil üçün əməliyyat elementlərinə ayırır və riskin necə bölüşdürüldüyünü beş istiqamətdə sistemləşdirir [14, s.8-10]:

◉ Düşmən silahlı qüvvələrinə yönəlmiş risk: Öldürülmə riskinin əsasən düşmən silahlı qüvvələrinə yönəlməsi-yəni mülki əhalidən təkrar hərbçilərə doğru risk istiqaməti-legitimlik mübahisələri üçün əhəmiyyətli dəyişən kimi göstərilir [14, s.8]. Bu, XX əsrin degenerasiyaya uğramış müharibələrindən fərqli olaraq, hədəfin yenidən düşmən qoşunu olması deməkdir.

◉ Yerli müttəfiqlərin üzərinə risk ötürülməsi: Qərb tərəfində quru döyüş riski mümkün qədər yerli müttəfiqlərin üzərinə ötürülür. Qərb hava gücü ilə yerli qüvvələrin qarşılıqlı asılılığı artdıqca, döyüş itkisinin daha böyük hissəsi bu yerli aktorların payına düşür [14, s.8].

◉ Empirik nümunələr: Xorvatiya və Bosniya orduları (1995): Serb separatçılarına qarşı Qərb koalisiyası öz hərbçilərini qorumaq üçün hava hücumlarına üstünlük verərkən, yerdəki əsas ağırlığı müttəfiqləri çəkmiş: 1. Kosovo Azadlıq Ordusu (1999): Serbiya nizami ordusuna qarşı quruda canlı hədəf rolunu oynayaraq düşmənlə birbaşa təmasda olmuş; 2. Şimal İttifaqı *(Əfqanıstanın Xilası üçün Birləşmiş İslam Cəbhəsi)* (2001): Taliban və Əl-Qaidəyə qarşı əməliyyatlarda yerli qüvvələr itkiləri qəbul etmişdirlər.

◉ Kiçik təkrarlanan mülki qətliamlar: Üçüncü element RTM-nin ən tənqidi xəttini açır. Şouya görə, "kiçik təkrarlanan mülki qətliamlar" qəsdən planlaşdırılmasa da, faktiki olaraq müharibənin risk

hesablamasına daxil edilir [14, s.9]. Yüksək hündürlükdən bombardman təyyarə heyətini qoruyur, lakin hədəfləmə səhvləri nəticəsində mülki ölümlər gözlənilən nəticəyə çevrilir. Buna görə də mülki əhaliyə risk ötürülməsi "məlum və sistemli" xarakter alır [14, s.9]. Hər kampaniyada bir neçə nəfərdən yüzlərlə nəfərə qədər mülki şəxslərin öldüyü kiçik qətliamlar baş verir.

◉ Media idarəçiliyi: Dördüncü element kimi "media idarəçiliyi" ayrıca mexanizm olaraq formullaşdırılır. Birbaşa mülki öldürmələr müəyyən həddi aşdıqda müharibənin media vasitəsilə formalaşan legitimliyini sarsıda bildiyinə görə, hökumətlər həm görüntülərin və rəqəmlərin təsirini azaltmağa, həm də baş verənləri yumşaldan izahlar qurmağa çalışırlar [14, s.9]. Bu istiqamətdə ən böyük qətliamlar intensiv məlumat manipulyasiyasına tətbiqinə məruz qalır: Əmiriyyə sığınacağının bombalanması (1991, Körfəz Müharibəsi): ABŞ aviasiyasının Bağdadda mülki sığınacağı komanda mərkəzi zənn edərək vurması [11], Qaçqın karvanının vurulması (1999, Kosovo): NATO təyyarələri serb hərbi karvanı zənn edərək alban qaçqınlarını bombalaması [12].

◉ Dolayı mülki itkilər: Beşinci element sxemi tamamlayır. Şou göstərir ki, dolayı və daha az görünən mülki itkilər *(məsələn, müharibənin yaratdığı qeyri-sabitlik, yoxsulluq, infrastrukturun məhv edilməsi və s. fonunda artan ölümlər)* siyasi baxımdan daha "idarəolunan" görünür [14, s.10]. Məsuliyyətin kimə aid edilməsini birmənalı göstərmək çətinləşdiyi üçün bu, Qərb liderləri üçün siyasi riski azaldır *(Örnəklər: 1. Kürd qaçqın böhranı (1991-ci ilin yazı, Körfəz Müharibəsindən sonra): Səddam Hüseynin qəzəbindən qaçarkən dağlarda donaraq və xəstəlikdən ölənlər, 2. Əfqanıstan aclığı (2001-2002-ci ilin qışı): ABŞ bombardmanlarından qaçaraq dağlara sığınan və humanitar yardımın kəsilməsi səbəbindən həlak olan mülki şəxslər [14, s.10]).*

Şou "Case-study" örnəkləri olaraq *(Empirik təhlil)* fikirlərini 3 əsas örnəkdə göstərir: Körfəz Müharibəsi *(1991)*: Qərb qüvvələri: 250 hərbi itki / Düşmən tərəfi: 20.000 hərbçi öldürülmüş / Mülki itkilər: 3.200 birbaşa ölüm; Kosovo Müharibəsi *(1999)*: Qərb qüvvələri: 0 itki *(NATO-nun "sıfır itki" strategiyası)* / Düşmən tərəfi: 1.000 hərbçi öldürülmüş / Mülki itkilər: 500 birbaşa ölüm; Əfqanıstan Müharibəsi *(2001-2002, ilkin mərhələ)*: Qərb qüvvələri: 1 itki / Düşmən tərəfi: Minlərlə hərbçi məhv edilmiş / Mülki itkilər: 4.500+ *(həm birbaşa, həm dolayı təsirlər)*. Bu rəqəmlər Şounun əsas arqumentini təsdiqləyir: Qərb öz itkilərini demək olar ki sıfra endirərkən, düşmən və mülki əhali üzərinə qeyri-mütənasib risk yüklənir-ötürülür. Eyni zamanda qeyd etmək lazımdır ki, Şou 2001-ci il noyabr tarixli qısa mətnində bu ideyanı daha yığcam şəkildə təqdim edir: o, yeni Qərb müharibə tərzinin legitimliyi qorumaq üçün müxtəlif risk ötürmələri üzərində qurulduğunu, mülki riskin "qəza" kimi təsvir edilsə də sistemli şəkildə yüksəldiyini və bu zəncirin qırıldığı halda "risk rebound *(riskin geri qayıdışı)*" - riskin Qərbin özünə geri qayıtması-ehtimalını vurğulayır [15]. Bu əsasda günümüz perspektivini ələ alsaq 2021-ci il sentyabr "Costs of Wars *(Müharibələrin xərcləri)*" hesabatında ABŞ üçün "9/11" sonrası başlayan müharibələrin ümumi maddi itkisi 8 trilyon ABŞ dollarıdır və əlavə etmək lazımdır ki, veteranlar qarşısında növbəti 30 il üçün 2,2 trilyon ABŞ dollarından artıq öhdəlik mövcuddur [8]. Eyni hesabatda "9/11" sonrası müharibələrdə *(Əfqanıstan, Pakistan, İraq, Suriya və Yəmən)* qeydə alınan birbaşa insan itkiləri 900,000 nəfəri keçmişdir. Lakin bu itkilərin kateqoriyalar üzrə strukturu riskin qeyri-bərabər paylandığını və asimmetriyanı açıq şəkildə ortaya qoyur. Belə ki, bütün müharibə zonaları üzrə ABŞ hərbi personalının itkisi cəmi 7,052 nəfər təşkil edir ki, bu da ümumi ölüm sayının 1%-dən də az hissəsidir. Buna müqabil olaraq, riskin dövlət strukturundan özəl sektora transferi nəticəsində podratçıların *(muzdluların)* itkiləri 8,189 nəfərə çataraq nizami ordu itkilərini üstələmişdir. Riskin coğrafi transferinin ən bariz nümunəsi isə yükün yerli tərəfdaşların üzərinə düşməsidir; ABŞ-ın yerli müttəfiqi olan milli hərbi və polis qüvvələri 177,000-dən çox itki vermişdir. Müharibənin ən ağır bioloji bədəlini isə təxminən 300,000 nəfərlik düşmən döyüşçüsü və birbaşa hərbi əməliyyatlar nəticəsində həyatını itirən 432,000-dən çox mülki əhali ödəmişdir [7].

Nəzəri perspektivimiz: Bioloji-material risk transferi: Şou göstərir ki, Qərb riskin horizontal transferinə üç səbəbdən əl atır: a) Strateji səviyyə: Vyetnam sindromu və nüvə silahı təhdidi müharibəni delegitimləşdirdi və yeni legitimlik axtarışı başladı [14, s.6-7], b) Texnoloji səviyyə: Yüksək dəqiqlikli silahlar kütləvi qırğınların miqyasını azaltmağa imkan versə də, yüksək hündürlükdən endirilən hava zərbələri kiçik miqyaslı qətliamların sistemli xarakter almasına gətirib çıxarmışdır [14, s.7-8], c) Media-siyasi səviyyə: Televiziya canlı itkiləri siyasi riskə çevirir; ona görə risk transferi həm də

"media idarəçiliyi"dir [14, s.9] Biz isə əlavə edirik: bu üç səbəb yalnız horizontal transfer *(risk Qərb əsgərlərindən başqalarına keçir)* üçün deyil, həm də vertikal transfer *(risk bioloji substratdan material substrata keçir (bioloji bədən və ya texnoloji platforma))* üçün keçərlidir.

Vertikal transfer: Bioloji-material riskin dinamikası: a) Siyasi-ideoloji müstəvi: Müharibənin biosiyasəti və "Siyasi bədən"-in transformasiyası: Müasir müharibədə riskin insan bədənindən texniki sistemlərə - aparatlara ötürülməsi, bio-siyasətin klassik formalarından fərqlənən yeni "material-siyasət" dinamikasını ortaya qoyur. Bu dinamika Mişel Fukonun bio-siyasət anlayışına istinad etmək üçün uyğundur, lakin onun terminologiyasında "material-siyasət" birbaşa mövcud deyil [1]. Fuko bio-siyasəti 1975-1976-cı illərdə "*Collège de France"*-dakı mühazirələrində *("Cəmiyyət müdafiə olunmalıdır")* təqdim edib. Bu anlayış əhalinin (populyasiyanın) bioloji həyatını (doğum səviyyəsi, sağlamlıq vəziyyəti, ölüm göstəriciləri) idarə edən hakimiyyət texnologiyasıdır. O, suverenin "öldürmək hüququndan" fərqli olaraq, həyatı qorumaq və artırmaq məqsədi güdür [1]. Biosiyasət əhalini fərdi bədənlər *(anatomo (anatomik)-siyasət)* kimi deyil, bioloji populyasiya, yəni yaşayan növlər *(espèce-species)* kimi tənzimləyir. Bu, statistik proseslər *(demoqrafiya, epidemiyalar)* vasitəsilə cəmiyyətin ümumi həyat potensialını idarə etmək deməkdir. Beləliklə, bio-siyasət riskin bədəndən aparatlara ötürülməsini əhatə etmir, çünki bu, "material-siyasət" kimi fərqli bir formadır. Fuko texnologiyanı daha çox intizam (disiplin) və idarəetmə mexanizmləri kontekstində müzakirə edir [2].

Bu transformasiya, tarixi kontekstdə əsgər ölümünə verilən siyasi və ictimai mənanın köklü dəyişimi ilə xarakterizə olunur:

- XIX əsr *(Müqəddəsləşdirmə)*: Millətçilik ideologiyası "vətən uğrunda ölümü" ali məqsəd kimi təqdim edərək əsgər itkisini müqəddəsləşdirir və legitimlik mənbəyinə çevirirdi.
- XX əsrin ortaları *(Travma)*: İki Dünya Müharibəsi və nüvə silahının yaratdığı kütləvi qırğınlar, ölümü "qəhrəmanlıq"dan çıxararaq ekzistensial "dəhşət" və statistika səviyyəsinə gətirdi.
- XX əsrin sonu *(Dözümsüzlük)*: Vyetnam sindromu, Qərb cəmiyyətlərində canlı qüvvə itkilərini siyasi baxımdan "qəbuledilməz" və ya "həzm edilə bilməyən" xərcə çevirdi.
- XXI əsr *(Post-heroik dövr)*: Müasir "post-heroik" *(qəhrəmanlıq sonrası)* cəmiyyətlərdə hər bir əsgər itkisi hərbi hadisədən çox, potensial siyasi böhran kimi qavranılır.

Nəticədə Qərbin mövcud demoqrafik modeli *(aşağı doğum səviyyəsi, qocalmaqda olan əhali)* və liberal-fərdi ideologiyanın "insan həyatının toxunulmazlığı" prinsipi müharibəni bioloji cəhətdən "bahalı" prosesə çevirmişdir. Bu dilemmanı həll etmək üçün risk, bioloji sferadan *(insan bədənindən)* çıxarılaraq, bərpa edilə bilən maddi aktivlərə *(dronlar, raketlər, serverlər)* yüklənir. İqtisadi məntiq siyasi məntiqlə əvəz olunur: Məsələn, bir F-35 təyyarəsinin maddi dəyəri 80-110 milyon dollar olsa da, pilotun sağ qalması əməliyyatın siyasi xərcini sıfıra endirir.

b) İqtisadi səviyyə: Kapitalist müharibənin məntiqi: Marx-sonrası arqument: Kapitalizmə əsaslanan müharibə: a) Bir növ "canlı əməyi" *(əsgər)* "ölü əməklə" *(texnologiya, maşın)* əvəz etməyə meyllidir, b) Risk demoqrafik sərmayədən (insan həyatı) maddi sərmayəyə *(hərbi-sənaye məhsulu)* keçir, c) Bu, kapitalist məntiqin müharibəyə tətbiqi-yəni, avtomatlaşdırma və əməyin məhsuldarlığının artırılması deməkdir.

Empirik nümunə olaraq Əfqanıstanda ABŞ bir əsgəri itirəndə təxminən 3000-5000 Taliban əsgəri öldürülüb [14, s.11-12] və bu nisbət texnoloji üstünlükdür, amma həm də kapital intensivliyin artması deməkdir. Yəni hər bir əməliyyat üçün: insan əməyi düşməsi, texniki xərcin *(materoloji xərcin)* artması deməkdir. Maraqlıdır ki, material risk transferi müharibəni bahalı *edir (hər raket, hər dron, hər server maliyyə tələb edir)*, lakin davamlı edir *(çünki siyasi xərc aşağıdır)*.

c) Epistemoloji səviyyə: Görünən riskdən abstrakt riskə: Şou haqlı olaraq vurğulayır ki, media idarəçiliyi riskin necə qəbul edilməsini formalaşdırır [14, s.9]. Lakin biz əlavə edirik ki, bioloji risk görünəndir *(Cəsədlər televiziyada göstərilir, Tabutlar hava limanlarında qarşılanır, Ailələr yas tutur, etiraz edir, Rəqəmlər demoqrafik və emosionaldır: "100 əsgər öldü")*. Material risk isə abstrakt və göz önündə deyil: Dron itkiləri "təchizat itkisi" hesabat sətrində görünür; "Server hack"-i *(Serverə sızma)* "kibertəhlükəsizlik hadisəsi" adlanır; Milyonlarla dollar xərc "müdafiə büdcəsi" maddəsi kimi təqdim olunur / büdcədə əks olunur; Rəqəmlər maliyyə və texnokratikdir: "50 milyon $ avadanlıq zərəri". Bu hissəyə nəticə olaraq deyək ki, material risk dil və təsəvvür səviyyəsində fərqli kodlaşdırılır. Cəmiyyət 10 əsgərin ölümünə etiraz edə bilər, amma 500 milyon dollarlıq texnika itkisi "texniki

məsələ" kimi qəbul edilir və ciddi etirazlara səbəbiyyət vermir. Əgər biz Qərb hərbi doktrinasının məntiqi sonluğunu - yəni "sıfır itki"-li müharibələrin tam normallaşdığı bir gələcəyi təsəvvür etsək, burada "Görünən Risk" anlayışı fundamental metamorfozaya uğrayır. Bu reallıqda müharibə bir növqan və cəsədlərdən ibarət fiziki toqquşma olmaqdan çıxaraq, sadəcə ekrandakı piksellərin və statistik göstəricilərin idarə edilməsinə çevrilir. İnsan itkisi artıq faciə deyil, "sistem xətası" və ya "statistik kənarlaşma" kimi qəbul edilir. Nəticədə, müharibə reallıq hissini itirir və bir növ-cəllad ilə qurban arasındakı qarşılıqlılıq *(reciprocity)* tamamilə yox olur və geriyə yalnız neytral rəqəmlər və maliyyə hesabatları qalır.

Müasir texnoloji transformasiya və Risk transferi: Müzakirə olunan aspektdən yanaşdıqda, Martin Şounun "Risk-Transfer Militarizm" nəzəriyyəsi müasir hərbi-texnoloji transformasiyanın mahiyyətini və nəticələrini daha dəqiq anlamağa imkan verən fundamental çərçivə rolunu oynayır. Bu transformasiya prosesi üç əsas istiqamətdə - Pilotsuz Uçuş Aparatları, avtonom sistemlər və kibermüharibə vasitəsilə riskin həm bioloji, həm də coğrafi yerdəyişməsini həyata keçirir:

- Birincisi, Pilotsuz Uçuş Aparatları *(PUA)* riskin transferini ən bariz şəkildə nümayiş etdirən vasitələrdir. PUA-ların tətbiqi operatorun fiziki təhlükəsizliyini mütləq şəkildə təmin etməklə, hərbi personalın itki ehtimalını minimuma endirir. Operatorun döyüş zonasından okeanlararası məsafələrlə ayrılması *(distant müharibə - uzaqdan aparılan müharibə)* riskin vertikal transferini - yəni, riskin insan bədənindən texnoloji platformaya ötürülməsini reallaşdırır. Lakin, qərarvermə prosesindəki fiziki uzaqlıq və hədəfləmə xətaları paradoksal olaraq mülki itkilərin artmasına zəmin yaradır. Bu məqamda Şounun horizontal transfer konsepsiyası *(riskin Qərb əsgərindən yerli mülki əhaliyə keçməsi)* özünü göstərir; operatorun təhlükəsizliyi artdıqca, hədəf bölgəsindəki mülki əhalinin həssaslığı da adekvat şəkildə yüksəlir.
- İkincisi, avtonom sistemlərin genişlənməsi riskin idarə edilməsində yeni struktur dəyişiklikləri yaradır. Birbaşa quru əməliyyatlarında insan iştirakının azalması, əməliyyat yükünün və bununla bağlı risklərin yerli tərəfdaşlara ötürülməsini daha sistemli hala gətirir. Bu proses Şounun nəzəriyyəsindəki ikinci elementlə - riskin yerli müttəfiqlərin üzərinə ötürülməsi ilə birbaşa əlaqəlidir. Texnologiya bu kontekstdə sadəcə bir alət deyil, riskin yerli aktorlara *("proxy" qüvvələrə)* ötürülməsini intensivləşdirən və legitimləşdirən bir katalizator kimi çıxış edir.
- Üçüncüsü, kibermüharibə fenomeni riskin təbiətini tamamilə dəyişdirərək onu "qeyri-bioloji" məkana - informasiya fəzasına keçirir. Fiziki qarşıdurmanı istisna etməsinə baxmayaraq, kiberhücumlar kritik infrastrukturu hədəf alaraq genişmiqyaslı dolayısı zərər yarada bilir. Bu dinamika Şounun beşinci elementi olan "dolayı mülki itkilər" *(məsələn, elektrik və ya səhiyyə sistemlərinin sıradan çıxması nəticəsində yaranan fəsadlar)* ilə rezonans təşkil edir. Beləliklə, müharibənin kinetik olmayan sahəyə keçməsi riski yox etmir, əksinə, onu daha qeyri-müəyyən və idarəolunmaz bir formaya transformasiya edir.

Hesabat mexanizmləri və Siyasi təzyiqin asimmetriyası: Şou (2002, s.9) göstərir ki, Qərb mülki itkiləri "idarə edilə bilən" hədlərdə saxlayır, çünki böyük qətliamlar medianın diqqətini çəkir və legitimliyi sarsıdır, "kiçik qətliamlar" isə daha az siyasi təzyiq yaradır və dolayı itkilər isə məsuliyyətin dəqiq mənbəsini ilkin periodda bildirmədiyi üçün daha qəbuledilən görünür [14, s.10]. Bioloji-material risk transferi hesabat məntiqini də fundamental şəkildə dəyişir və bu dəyişiklik siyasi təzyiqin asimmetriyasını yaradır. Bioloji itkilərdə hesabat qəti və şəffafdır: hər əsgərin adı açıqlanır, ailələrə bildiriş verilir, media izləyir və hesabat tələb edir, ictimai rəy birbaşa emosional reaksiya verir və nəticədə demoqrafik şəffaflıq yüksək siyasi təzyiq yaradır *(məs. ABŞ-da hər bir itki Konqres qarşısında siyasi hesabatlılıq, yüklü maliyyə kompensasiyası və ictimai rəyə təsir edən rəsmi vida mərasimləri tələb edilir[5])*. Əksinə, material itkilərdə hesabat mürəkkəb və bulanıqdır-aydın deyildir. Belə ki, texnika itkisi (materoloji itki) "müdafiə büdcəsi" içində itir, dron itkisi "əməliyyat xərci" kimi göstərilir, kiberzərər "qeyri-material" hesab edilir, ictimai rəy texnokratik mübahisələrlə maraqlanmır və maliyyə bulanıqlığı aşağı siyasi təzyiq yaradır. ABŞ Əfqanıstanda minlərlə dron itkisi verdi, lakin xalqın çoxluğu tam rəqəmi bilmir və demək olar ki, heç kəs bu haqda da maraqlanmır.

Material risk bioloji riskdən siyasi cəhətdən ucuzdur və bu asimmetriya dörd struktural səbəbdən qaynaqlanır: hesabat şəffaflığı aşağıdır *(büdcə bəndləri və texniki təfərrüatlar ictimaiyyəti maraqlan-*

dırmır), emosional rezonans yoxdur *(maşın ölmür, ailə yas tutmur)*, əvəzləmə qabiliyyəti var *(yeni dron istehsal oluna bilər, insan həyatı isə geri qaytarılmazdır)* və dil və diskurs fərqlidir *("əməliyyat xərci" yoxsa "şəhid", "itki" yoxsa "qurban")*. Material itkilər milyardlarla dollar ola bilər, amma siyasi böhran yaratmır və bunun səbəbləri strukturaldır. Birincisi, kapitalist iqtisadiyyatda itkilər normallaşdırılır: hər şirkət zərər verir və bu "iş prosesidir", müdafiə sənayesi üçün texnika itkisi gözlənilən amortizasiyadır və rəqəmlər makroiqtisadi statistika içində itir *(Dünya ÜDM-sinin 3.4%-i müdafiəyə gedir[16])*. İkincisi, material itkilər mütəxəssis dilinə həvalə edilir: "platforma uğursuzluğu", "sistem xətası", "texniki nasazlıq" kimi terminlər orta vətəndaşın başa düşmədiyi və maraqlanmadığı, medianın isə sadələşdirməyə maraq göstərmədiyi *(sensasiya olmadığı üçün)* sahəni yaradır. Üçüncüsü, texniki itki çoxlu aktora bölünür və məsuliyyət dispersiyası yaranır: istehsalçı şirkət, operator, komandan, proqramçı, siyasətçi arasında məsuliyyət dağılır və bioloji itkidə məsuliyyət aydın olduğu halda *(komandan əsgəri döyüşə göndərdi)*, material itkidə məsuliyyət sistem uğursuzluğuna reduksiya olunur. Dördüncüsü, müharibə-sənaye kompleksinin marağı material itkiləri qazanc mənbəyinə çevirir: hər itmiş dron yeni sifariş deməkdir, texnika itkisi dövrü yeniləməni tələb edir, müdafiə büdcəsi genişlənir və azalmır və siyasi elita ilə kapital eyni maraq paylaşır.

Nəzəri və praktik nəticələr: Şounun 2D *(D-Dimensional-Ölçülü)* modeli horizontal transfer *(Qərb əsgəri → düşmən/yerli/mülki)* və birbaşa/dolayı risk ölçülərini əhatə edirdi, biz isə bioloji / material substrat ölçüsünü irəli sürərək 3D model təklif edirik: X oxu *(horizontal: nədən nəyə)*, Y oxu *(şaquli-1: birbaşa/dolayı)* və Z oxu *(şaquli-2: bioloji/material)*. Bu model göstərir ki, müasir müharibədə risk eyni zamanda coğrafi *(məkan)*, sosial *(sinif, milli mənsubiyyət)* və ontoloji *(bədən yoxsa material/texnoloji vasitə)* şəkildə ötürülür və bu üç ölçü qarşılıqlı əlaqəlidir. Bioloji-material transfer paradoksal nəticə yaradır: müharibə Qərb üçün daha az qanlı olur, amma daha davamlı olur (siyasi xərc aşağıdır), müharibə daha bahalı olur *(intensiv kapital)*, amma daha asan başlanır.

Martin Şou (2002, ss.14-15) hərbi itkilər və mülki zərər arasındakı asimmetriyanı sorğulasa da, müasir dron müharibələri məsələni "itkisiz müharibə" və "yüksək texnoloji maliyyə" müstəvisinə keçirir. Əsas etik problem bioloji riskin yoxluğunun yaratdığı mənəvi izolyasiyadır. Operator üçün müharibənin "videooyun" formatına düşməsi və cəmiyyət üçün tabutların gəlməməsi, zorakılığa qarşı təbii ictimai refleksi söndürür. Bu isə müharibənin "texniki əməliyyat" adı altında siyasi məsuliyyətdən kənarlaşdırılmasına (depolitizasiyaya) zəmin yaradır.

Ədəbiyyat icmalı və nəzəri töhfə: Bioloji-material risk transferi ideyası tamamilə yeni olmasa da, mövcud ədəbiyyatda adətən parçalanmış və implisit şəkildə təqdim olunur. Məsələn, Hil (2022) "On Posthuman War *(İnsan-sonrası müharibəyə dair mülahizələr)*" əsərində müharibənin insanın özündən kənara genişlənmə prosesini təhlil edərək [10], "Bullets, beans, and data *(Güllə, ərzaq və məlumat)*" prinsipi çərçivəsində hər şeyin müharibə materialına çevrildiyini vurğulayır. O, riskin "insan bədənindən" başqa substratlara *(məlumat, identifikasiya, idrak)* keçidini qeyd edir, lakin əsasən idrak və məlumat müharibəsinə fokuslanır. Uzaq məsafədən aparılan müharibə ideyasına aid ədəbiyyatlar [10; 13; 4] isə risk transferinin uzaqdan texnologiyalara daxil edilməsi kimi qəsdən həyata keçirilən strategiya olduğunu göstərir, siyasi xərcin azalması məntiqini təsdiqləyir və bioloji riskdən uzaqlaşmanı empirik "Case study"-lər vasitəsilə təsvir edir, lakin bioloji→material ontoloji keçid terminologiyasını sistemli şəkildə istifadə etmir. Uilkoks (2017) dron müharibəsini posthuman feminist nəzəriyyə prizmasından nəzərdən keçirərək, süni intellekt və alqoritmik qərar qəbuletmənin bədənlənmənin yeni forması kimi çıxış etdiyini əsaslandırır və bədən-texnologiya dialektikasını ön plana çəkir [17]; bununla belə, gender və irq kateqoriyalarını analizin mərkəzinə yetərincə yerləşdirmədiyi üçün yanaşma həmin kontekstlərdə məhdud qalır. Koker (2013) "Post-human warfare *(İnsan-sonrası müharibə)*" konsepsiyasını təklif edərək müharibənin getdikcə insan təcrübəsindən uzaqlaşdığını göstərir, lakin daha çox strategiya, etika və insan psixologiyası kontekstində qalır [6]. Bruks (2016) isə ABŞ-ın yarım əsr ərzində "Amerikan ictimaiyyətinin qanını deyil, pulunu sərf etməyə hazır olduğuna" əsaslanan hərbi modelini təsvir edir ki, bu birbaşa bizim "bioloji→material" transferini təsdiqləyir, lakin siyasət tövsiyələri səviyyəsində qalır və nəzəri çərçivəyə malik deyil [3]. Mövcud ədəbiyyat ideyamızın ayrı-ayrı elementlərini təsdiqləyir: riskin bioloji daşıyıcıdan uzaqlaşması, texnologiyanın risk daşıyıcısı olması, siyasi xərcin azalması, material xərcin artması, bədən-texnologiya transformasiyası. Lakin bu arqumentləri vahid, sistemli nəzəri çərçivəyə qoymayıb. Bizim orijinal töhfələrimiz

dörd əsas istiqamətdədir:

1. Ontoloji aydınlıq və terminoloji dəqiqlik: "Bioloji substrat → material substrat" kimi aydın ontoloji dil yaradırıq və risk transferini yalnız horizontal deyil, həm də vertikal olaraq konseptuallaşdırırıq. Eyni zamanda Şounun 2D modelini 3D modellə əvəz edirik.
2. Hesabat mexanizmləri və siyasi asimmetriyanın sistematik analizi: Dörd struktural səbəb göstəririk *(hesabat bulanıqlığı, emosional boşluq, iqtisadi normalizasiya, sənaye marağı)* və material itkilərin "siyasi cəhətdən ucuz" olmasının epistemoloji və diskursiv mexanizmlərini açırıq.
3. Şou ilə yaradıcı sintez: Onun risk transfer modelini inkar etmir, əksinə genişləndiririk və göstəririk ki, horizontal transfer effektiv olmaq üçün vertikal transfer tələb edir.
4. İqtisadi-siyasi dinamikanın inteqrasiyası: Kapitalist müharibənin siyasi iqtisadiyyatını risk transferi ilə birləşdiririk və material riskin kapital akkumulyasiyası və hərbi-sənaye kompleksi ilə əlaqəsini vurğulayırıq, riskin materiallaşdırılmasının struktur maraq yaratdığını *(itkidən qazanc)* təhlil edirik.

Horizontal və vertikal risk transferinin inteqrasiyası: Bizim nəzəri modelimiz mövcud ədəbiyyatda körpü funksiyası daşıyır və empirik tapıntılarla konseptual müzakirələri əlaqələndirən bir çərçivə təklif edir. Mövcud ədəbiyyat əsasən iki səviyyədə strukturlaşır: (1) empirik-təsviri səviyyə *(Remote Warfare Studies)* konkret kampaniyaları təhlil edir və "nə baş verir?" sualına cavab verir; (2) fəlsəfi-konseptual səviyyə *(Posthuman Theory)* müharibənin fundamental ontoloji transformasiyasını müzakirə edir və "müharibə nədir və insan-texnologiya sərhədi haradadır?" suallarını gündəmə gətirir. Bizim modelimiz isə empirik nümunələri nəzəri çərçivəyə yerləşdirərək "niyə və necə?" suallarına cavab verir və Şounun horizontal transfer modeli ilə bizim vertikal transfer modelimizi inteqrasiya edir.

Biz üç analitik addım təklif edirik:

◉ 1. Empirik müşahidə *(Şounun statistik göstəricilərindən və müasir müharibə məlumatlarından istifadə)*;

◉ 2. nəzəri abstraksiya *("bioloji substrat → material substrat" keçidini ifadə edən ontoloji dilin qurulması)*;

◉ 3. mexanizm izahı *(siyasi təzyiqin asimmetriyasını izah edən dörd struktur səbəbin təqdimatı)*.

Bu metodologiya həm empirik olaraq yoxlana bilən, həm də nəzəri baxımdan genişlənə bilən model qurmağa imkan verir və yeni tədqiqat suallarını açır: kibermüharibədə risk transferi necə işləyir və risk tamamilə "qeyri-material" ola bilərmi? Süni intellekt və avtonom silahlar vertikal transferi daha da dərinləşdirirmi? Material riskin hədd nöqtəsi varmı (maliyyə tükənməsi, texnoloji həssaslıq)? Qeyri-Qərb aktorları oxşar model qurduqda nə baş verər? "Risk rebound"-un material formada təzahürü necə ola bilər (kiberhücum, iqtisadi böhran)?

Nəticə. İnsan-sonrası müharibənin ziddiyyətli gələcəyi. Risk transferi dinamikasının tarixi təkamülü göstərir ki, XIX əsrdə əsgər bədəni *(qəhrəmanlıq ideologiyası çərçivəsində)* əsas risk daşıyıcısı idi; millətçilik bu itkini legitimləşdirdiyi üçün siyasi təzyiq nisbətən zəif qalırdı. XX əsrin ortalarında kütləvi ölümün *(total war)* və nüvə təhlükəsinin yaratdığı miqyas səbəbindən siyasi təzyiq orta səviyyəyə yüksəldi. 1960-1990 dövründə isə *(xüsusən Vyetnam kontekstində)* media təsiri və demokratik hesabatlılıq mexanizmləri nəticəsində əsgər bədəni yüksək siyasi təzyiqin əsas mənbəyinə çevrildi. 1990-2020 dövründə mülki əhali və texnologiya, Şounun diaqnozu çərçivəsində, orta səviyyəli siyasi təzyiq yaratdı. 2020-ci ildən sonrakı mərhələdə isə texnologiya və süni intellekt bioloji riski sıfıra yaxınlaşdırdıqca siyasi təzyiqin azalması ehtimalı güclənir.

Bu trayektoriya riskin bioloji substratdan tədricən çıxarılaraq material substrata daşınmasına işarə edir və bunu postinsan müharibə kimi xarakterizə etmək olar: insan bədəni nə hədəf, nə silah, nə də qurban kimi mərkəzi mövqedə dayanır; müharibə getdikcə "maşın-maşın" qarşıdurmasına çevrilir, siyasi təzyiq minimuma enir və müharibə praktikasının normallaşması sürətlənir. Şou (2001) riskin ötürülməsinin daxili ziddiyyət yaratdığını və müəyyən şərtlərdə riskin geri qayıdışının baş verə biləcəyini qeyd edirdi [15]. Bizim əlavəmiz ondan ibarətdir ki, material riskin ötürülməsi bu ziddiyyəti həm dərinləşdirə, həm də müəyyən mənada ləngidə bilər: bioloji risk azaldıqca geri qayıdış gecikə bilər; lakin material itkilərin yığılması maliyyə resurslarının tükənməsi fonunda iqtisadi böhran yarada bilər. Kibermüharibə şəraitində isə risk gözlənilməz şəkildə Qərbə geri dönə bilər; buna səbəb həyati

əhəmiyyətli infrastrukturun texnoloji həssaslığıdır. Şounun riskin horizontal transferi müharibənin etik legitimliyini sarsıdırsa, bizim vertikal *(bioloji → material)* transfer modelimiz müharibənin siyasi dayanıqlığını artırır; lakin eyni zamanda onun iqtisadi və texnoloji davamlılığını sual altına salır. Bu dinamikanın məntiqi sonluğu müharibənin bioloji daşıyıcılardan mümkün qədər azad edilməsidir. Belə bir postinsan müharibə şəraitində insan bədəni nə hədəf, nə silah, nə də qurban kimi görünməyə bilər; lakin məhz bu abstraksiyalaşma müharibəni daha normallaşmış, daha davamlı və potensial olaraq daha təhlükəli edə bilər. Çünki riskin materiallaşdırılması çox vaxt onun görünməzləşdirilməsi ilə müşayiət olunur; görünməyən risk isə daha çətin izlənən və nəticə etibarilə daha çətin idarə olunan riskdir.

ƏDƏBİYYAT

1. Adams, R. Michel Foucault: Biopolitics and Biopower: [Elektron resurs] / R.Adams; Critical Legal Thinking. - 2017. - URL: https://criticallegalthinking.com/2017/05/10/michel-foucault-biopolitics-biopower/ [30.06.2025].
2. Biopolitics: Foucault, Esposito and Agamben: [Elektron resurs] / Unit for Criticism and Interpretive Theory. - Urbana: University of Illinois, - 2015. - URL: https://criticism.illinois.edu/blog/biopolitics-foucault-esposito-and-agamben [30.06.2025].
3. Brooks, R. How Everything Became War and the Military Became Everything / R.Brooks. - New York: Simon & Schuster, - 2016. - 438 p.
4. Bruneau, T.C. Proxy warfare: Rethinking the paradigm / T.C.Bruneau, A.Croissant // - London: Small Wars & Insurgencies, - 2019. Vol. 30, № 4, - p.678-702.
5. Burrelli, D.F. Military Death Benefits: Status and Proposals: [Elektron resurs] / D.F.Burrelli, J.R.Corwell; Congressional Research Service. - Washington: - 2005. - URL: https://sgp.fas.org/crs/natsec/RL32769.pdf [30.06.2025].
6. Coker, C. Warrior Ethos and the Post-Human Warrior / C.Coker. - Edinburgh: Edinburgh Univ. Press, - 2013. - 168 p.
7. Crawford, N.C. Human Cost of Post-9/11 Wars: Direct War Deaths in Major War Zones: [Elektron resurs] / N.C.Crawford; Costs of War, Watson Institute. - 2021. - URL: https://costsofwar.watson.brown.edu/paper/human-cost-post-911-wars-direct-war-deaths-major-war-zones [30.06.2025].
8. Crawford, N.C. U.S. Federal Budgetary Costs of the Post-9/11 Wars: [Elektron resurs] / N.C.Crawford; Costs of War, Watson Institute. - 2021. - URL: https://costsofwar.watson.brown.edu/costs/economic/us-federal-budget [30.06.2025].
9. Gould, L. Remote warfare and the crisis of legitimacy / L.Gould, N.Stel // - London: Third World Quarterly, - 2023. Vol. 44, № 5, - p.1023-1040.
10. Hill, M. On Posthuman War: Computation and Military Violence / M.Hill. - Minneapolis: University of Minnesota Press, - 2022. - 260 p.
11. Human Rights Watch. Needless Deaths in the Gulf War: Civilian Casualties During the Air Campaign and Violations of the Laws of War: [Elektron resurs] / Human Rights Watch. - New York: - 1991. - URL: https://www.hrw.org/reports/1991/gulfwar/ [30.06.2025].
12. International Criminal Tribunal for the former Yugoslavia. Final Report to the Prosecutor by the Committee Established to Review the NATO Bombing Campaign Against the Federal Republic of Yugoslavia: [Elektron resurs] / ICTY. - The Hague: - 2000. - URL: https://www.icty.org/en/press/final-report-prosecutor-committee-established-review-nato-bombing-campaign-against-federal [30.06.2025].
13. Kreps, S.E. Drones: What Everyone Needs to Know / S.E.Kreps. - Oxford: Oxford University Press, - 2016. - 216 p.
14. Shaw, M. Risk-transfer militarism, small massacres and the historic legitimacy of war / M.Shaw // - London: International Relations, - 2002. Vol. 16, № 3, - p.343-359.
15. Shaw, M. Risk-transfer militarism: the new Western way of war: [Elektron resurs] / M.Shaw. - 2001. - URL: https://martinshaw.org/2009/12/13/risk-transfer-militarism-the-new-western-way-of-war-13-nov-2001/ [30.06.2025].

16. Statista. Countries with the highest military spending: [Elektron resurs] / Statista. - 2024. - URL: https://www.statista.com/statistics/262742/countries-with-the-highest-military-spending/ [30.06.2025].
17. Wilcox, L. Embodied resistance: Drone warfare and feminist posthumanism / L.Wilcox // - Oslo: Security Dialogue, - 2017. Vol. 48, № 6, - p. 531-549.

ЭЛЬГЮН ТАГИЗАДЕ
Докторант, Бакинский государственный университет

ТРАНСФОРМАЦИЯ РИСКА В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ: ПЕРЕХОД ОТ БИОПОЛИТИКИ К МАТЕРИАЛЬНОЙ ПОЛИТИКЕ

В статье обосновывается, что в современной западной войне риск переносится не только горизонтально (от западного солдата к другим), но и вертикально - от биологического носителя к материальному. Расширяя теорию “Милитаризма переноса риска” Мартина Шоу, анализируется трансформация риска из демографически-эмоциональной формы в экономически-технократическую. В исследовании изучается механизм снижения политического давления путем кодирования потерь БПЛА и киберсистем как “финансовых издержек”. Автор предлагает новую трехмерную (3D) аналитическую модель, добавляя к существующему подходу измерение “биологический/материальный субстрат”, и систематизирует структурные причины того, почему материальные потери считаются политически “дешевыми”. В результате оценивается дилемма этической легитимности и экономической устойчивости “постгероической” войны.

Ключевые слова: Перенос риска, Мартин Шоу, биополитика, материал-политика, биологическо-материальный перенос, постгероическая война, война дронов, вертикальный перенос.

ELGUN TAGHIZADE
PhD student, Baku State University

RISK TRANSFORMATION IN INTERNATIONAL RELATIONS: TRANSITION FROM BIO-POLITICS TO MATERIAL-POLITICS

The article argues that in modern Western warfare, risk is transferred not only horizontally (from the Western soldier to others) but also vertically - from the biological carrier to the material carrier. By expanding Martin Shaw’s theory of “Risk-Transfer Militarism,” the transformation of risk from a demographic-emotional form to an economic-technocratic form is analyzed. The study examines the mechanism by which UAVs and cyber systems reduce political pressure by encoding losses as “financial costs.” The author proposes a new 3D analytical model by adding the “biological/material substrate” dimension to the existing approach and systematizes the structural reasons for material losses being politically “cheap.” Consequently, the dilemma regarding the ethical legitimacy and economic sustainability of “post-heroic” warfare is evaluated.

Keywords: Risk transfer, Martin Shaw, bio-politics, material-politics, biological-material transfer, post-heroic warfare, drone warfare, vertical transfer.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 iyun 2025-ci il
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, s.e.d. Adil Mirabdullayev.